# “Molla Nəsrəddin”i təbiət özü yaratdı, yoxsa zaman?



Mürsəl İrəvanlı,

Yazıçı-publisist,
M. Qorki adına
Beynəlxalq
mükafat laureatı
Gəncə şəhəri

II yazı

***...Satirik jurnalistika sahəsində çalışanlar əsasən üzdə olan ziyalılardan – M.S.Ordubadi, Əli Nəzmi, Seyid Hüseyn, Cəfər Cabbarlı, Əzim Əzimzadə və qeyri qədəm sahibləri idi. Bunlar ‘Molla Nəsrəddin’dən əlavə Bakıda nəşr olunan ‘Zənbur’, ‘Babayi-Əmir’, ‘Kəmiyyət” jurnallarında da iştirak edirdilər.***

***Başqa şəhərlərdə də satirik mətbuat orqanları işıq üzü görürdü. Məsələn, 1914-cü ildə İrəvanda türk ziyalıları ‘Leylək”jurnalını çıxarmağa başlamışdılar. Bu nəşrin redaktorları Mir Yusif Fətullayev və Cəfər Əsgərzadə (Aciz) idi. 1916-cı ildə Lənkəranda ‘Lətaif” adlı ‘həftəlik vərəqə” çap olunurdu.***

***İdeyaca çox müxtəlif xətti-hərəkət tutan bu mətbu orqanları əsas etibarilə ‘Molla Nəsrəddin’in yolu ilə getməyə çalışırdılar.***

***Mütərəqqi təfəkkür malik yazıçıların əməkdaşlıq etdikləri ‘Tuti”, ‘Arı”, ‘Bəhlul”jurnalları nəşr etdikləri yazıların bədii ruhu, kəsəri ilə ‘Molla Nəsrəddin’dən savayı o biri satirik orqanlardan kəskin şəkildə fərqlənirdi.***

“Bəhlul”un redaktoru Ələsgər Əliyev (1883-1938) idi. O, fəhlə ailəsində doğulmuş, “rus-tatar məktəbi”ni qurtarmış, bir müddət “Kaspi” qəzetinin mətbəəsində mürəttib şagirdi işləmişdi. Ə.Əliyev Peterburqda çıxan “Ülfət”, Daşkənddə çıxan “Türküstan”, Kazanda nəşr olunan “Vaxt”, Tehranda çıxan “Xurşid”, Həştərxanda işıq üzü görən “Qarjie”, Bakıda çıxan “Zənbur”, “Dəbistan” və digər qəzet və jurnallarda əməkdaşlıq edirdi. Ə.Əliyevin başçılığı ilə “Bəhlul” jurnalı satiranın qüvvətli orqanlarından biri kimi, qabaqcıl yazarların hörmətini qazandı. Böyük şair M.Ə.Sabir jurnal redaksiyasının dəvətini məmnuniyyətlə qəbul edib, kapital dünyasını damğalayan, fəhlə hərəkatını alqışlayan ən yaxşı əsərlərindən bir neçəsini “Bəhlul”da çap elətdirdi.

1905-ci il iyunun 7-də Bakıda nəşrə başlayan “Həyat” hər günçıxan qəzet idi. “Həyat”ın redaktorları Əlibəy Hüseynzadə və Əhmədbəy Ağayev idi. H.Zərdabi, N.Nərimanov, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar və başqa müəlliflər “Həyat”ın səhifələrində müntəzəm çıxış edirdilər.

Bu qəzet cəmiyyət arasında türkçülük, turançılıq və islamçılıq, həmçinin milli azadlıq ideyalarını təbliğ edirdi. Çarizmin müsəlman xalqına qarşı yeritdiyi şövinizm siyasətinə qarşı çıxan “Həyat” qəzeti istər-istəməz hökumət dairələri arasında böyük təşvişə səbəb olurdu. Məhz çarizmin yerlərdə milli oyanışın “qorxulu” bir cərəyan olduğunu nəzərdən qaçırmayan yerli məmurları bunun daha geniş miqyas alması üçün dəridən-qabıqdan çıxırdılar.

***Təbiidir ki, ‘Həyat’in yeritdiyi siyasət ‘Molla Nəsrəddin’dən sonra da, əvvəl də istər rəsmi hökumət dairələrində, istərsə də mətbuatda böyük mübahisə və münaqişələrə səbəb olurdu.***

***Qafqaz mətbuat komitəsində işləyən və “Tiflisski listok” qəzetində tez-tez yazıları çıxan A.İ.Kişmişov və Z.S.Qaraxanov (hər ikisi mənşəcə ermənidir) kimi senzorlar ‘Həyat’in yeritdiyi siyasəti əldə rəhbər tutaraq ümumiyyətlə Azərbaycan mətbuatı və ədəbiyyatına böhtanlar atır, hətta az qala bütün Azərbaycan yazıçılarını ‘panislamist” adlandırırdılar.***

Onlar hökumətə bu məzmunda göndərdikləri şeytançılıq məktubları ilə Azərbaycan ziyalılarının yeni qəzet və jurnal çıxarmaq haqqında ərizələrinin rədd edilməsinə də nail olurdular.

Çox önəmlidir ki, bir neçə il sonra, 1911-ci ildə çarizm hökumətə xəyanətdə təqsirləndirdiyi “müsəlman mətbuatı” xadimlərinə qarşı cəza tədbirləri gördüyü zaman inqilabi, demokratik ideyalar yayan yazarlarla bərabər “Həyat”ın xəttini davam etdirərək millətçilik türkçülük məfkurəsinə sadiq qalan bir sıra jurnalistləri də təqib, həbs, yaxud sürgün etmişdi. Belə jurnalistlərin içərisində C.Məmmədquluzadə, Ömər Faiq, ƏliPaşa Səbur, Haşım bəy Vəzirov, O.Orucov, Ə.Müznib və başqaları kimi yüksək əqidəli insanlar vardı. Ancaq bu tədbirlər müvəqqəti xarakter daşıyırdı. Tezliklə bu qadağalar aradan götürüldü və Azərbaycanın söz sahibləri öz yerlərinə qayıtdı.

1905-ci il rus inqilabından sonrakı ədəbi mühitdə fəallıq göstərən jurnalist və yazıçılardan biri də Haşım bəy Vəzirov idi.

1868-ci ildə Şuşada anadan olan Haşım bəy Vəzirov ilk təhsilini ata-anasından, Molla Həmid və Mirzə Əlinin xüsusi məktəblərində alır, sonra Şuşa şəhər məktəbinə daxil olub oranı qurtarıb İrəvan seminariyasına daxil olur. Seminarist ikən qələm təcrübələrinə başlayıb, “Məktəb tərbiyəsi”, “Döymə qapımı, döyərəm qapını”, “Evlənmək su içmək deyil” kimi əsərlərini yazır.

Seminariyanı bitirdikdən sonra 19 il İrəvan vilayətinin müxtəlif yerlərində müəllimlik və müfəttişlik edir. XIX əsrin 90-cı illərində Şuşaya gəlib “rus-tatar” məktəbində ana dilində dərs deyir. Həmin dövrdə “Kaspi” və “Novoye obozrenie” qəzetlərində “Sbornik materialov dlə opisaniya plemen i mestnostey Kavkaza” məcmuəsində məqalələr çap etdirir, Şekspirin “Otello” faciəsini və bəzi əsərləri Azərbaycan dilinə çevirir. Şuşa bələdiyyə idarəsinin üzvü olduğu vaxt əhalinin narazılığı nəticəsində hökumət H.Vəzirovu beş il müddətinə Stavropola sürgün edir. Bakıya qayıtdıqdan sonra “İrşad” qəzetində məqalələr çap etdirməyə başlayır. Hətta bir müddət bu qəzetdə məsul redaktor olur. Az sonra H.Vəzirov Molla Pənah Vaqifin seçilmiş şeirlər məcmuəsini çap etdirir. Otuz ildən çox ədəbi-jurnalistika fəaliyyətində bulunan Haşım bəy Vəzirov 1916-cı ildə Bakıda vəfat etmişdir.

***XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı yeni bir mərhələyə qədəm qoymuşdur. Bu dövrün ədəbiyyatı bir çox xüsusiyyətlərlə – öz siyasi kəskinliyi, ictimai münasibətləri daha geniş planda, daxili ziddiyyətləri ilə qavraması, həyata daha çox yaxınlaşması, janr zənginliyi və bədii kamilliyi ilə yeni keyfiyyətlərə malik bir ədəbiyyat olduğunu sübut etməkdə idi. M.Ə.Sabir (1862-1911), C.Məmmədquluzadə (1866-1932), Ə.Haqverdiyev (1870-1933), N.Nərimanov (1870-1925), M.Ə.Möcüz (1873-1934), S.S.Axundov (1870-1939) kimi sənətkarlar öz yaradıcılıqları ilə XX əsr Azərbaycan ədəbiyyatında realizmin bir ədəbi məktəb kimi qəti qələbəsini, yaşamaq və inkişaf etmək qüdrətini, onun ölkəmizin tarixi və ədəbi inkişafı ilə üzvü şəkildə bağlı olduğunu bir daha təmin və təsdiq etmişdir. Həmin dövrdə realist ədəbiyyatla yanaşı Azərbaycanda bu cərəyanın estetik prinsiplərini qanun halına salan, onun inkişafına təkan verən əlbəttə ki, demokratik tənqid də inkişaf etməkdə idi.***




Demokratik tənqid sahəsində yorulmadan çalışan, tənqidi özü üçün meyar seçən müəlliflərin sayı çox az idi. Firuddin bəy Köçərli, Kazım oğlu (Hüseyn Sadiq, 1887-1937), Abdulla Sur (1883-1912) və ara-sıra bir neçə tənqidi məqalə yazıb o qədər də məşhur olmayanlardan əlavə bu adların sayını artırmaq olduqca çətindir. Lakin bu siyahıya əsasən bədii yaradıcılıqla məşğul olub tez-tez ədəbi-tənqidi məqalələrlə çıxış edən C.Məmmədquluzadə, Ü.Hacıbəyov, A.Səhhət, Ə.Haqverdiyev, N.Nərimanov, M.Hadi kimi sənətkarların adları da əlavə edilsə, tənqid cəbhəsini tam şəkildə təsəvvür etmək olar.

M.F.Axundovdan sonra Azərbaycan ədəbiyyatının əsas inkişaf xəttini realizm təşkil etdiyi kimi, demokratik tənqidin də diqqət mərkəzində təbii ki, realizm problemi dururdu. Həmin problemi həll edərkən ədəbi tənqid sənətin əsas təsvir hədəfi, onun həyata münasibəti, tipiklik, sənət və ictimai həyat, ədəbiyyatın tərbiyəvi əhəmiyyəti, bədii forma, dil və üslub kimi nəzəri xarakter daşıyan məsələləri izah etməyə çalışırdı.




1906-cı ildə “Molla Nəsrəddin” dərgisinin nəşrə başlaması inqilabi demokratik tənqidin yaranması, bu tənqidin daha mübariz bir surətinin meydana çıxması üçün çox mühüm zəmin yaradır.

“Molla Nəsrəddin” jurnalı XX əsr realizminin yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin edən əsas ədəbi amillərdən biri idi. Lakin jurnalın ədəbi inkişafda oynadığı rol bununla məhdudlaşmırdı. O, həmçinin demokratik tənqidin ənənələrini ardıcıl şəkildə davam etdirən, inqilabi-demokratik estetikanın prinsiplərini müdafiə və təbliğ edən bir orqan idi. Doğrudur, jurnalın saylarında ədəbiyyat məsələlərinə həsr olunmuş yazılara ara-sıra rast gəlmək olur. Bu isə çox təbii haldır.

***Çünki jurnalın ümumi ədəbi istiqaməti, yəni onun satirik dərgi olması buna az imkan verirdi. Bununla belə ‘Molla Nəsrəddin”mühüm ədəbi hadisələrə yeri düşdükcə öz münasibətini bildirir, bəzi hallarda jurnalda çap olunan məqalələr ətrafında mətbuatda müzakirələr açırdı. Ön Qafqazda, həmçinin bütün Yaxın Şərqdə geniş şöhrət qazanmış ‘Molla Nəsrəddin”kimi bir jurnalda çap olunan ədəbi-tənqidi yazıların təsiri çox qüvvətli olurdu.***

***‘Molla Nəsrəddin” jurnalının apardığı ədəbi mübarizənin flaqmanı əlbəttə ki, böyük ədib Cəlil Məmmədquluzadə idi. O, bədii əsər və felyetonlar ilə bahəm ədəbi-tənqidi məqalələri, tənqidi yazıları ilə də həyata əsaslanan, dövrün nəbzini tutan, xalqın tərəqqisinə, inqilabi şüurun qüvvətlənməsinə xidmət edən bir ədəbiyyat uğrunda mübarizə aparırdı. C.Məmmədquluzadə ədəbiyyatın, mətbuatın böyük tərbiyəvi əhəmiyyətini qeyd edirdi. Onun fikrincə, həqiqi sənətlər cəmiyyətdəki qüsurları, ictimai xəstəlikləri tənqid etməklə kifayətlənməlidir. O eyni zamanda, öz oxucusuna mövcud neqativ halların ortadan qaldırılması yollarını da göstərməlidir.***

“Molla Nəsrəddin” jurnalı sözün həqiqi mənasında realist sənəti və onun böyük simalarını müdafiə və təbliğ edərkən aydın bir məqsəd izləyirdi: jurnal bu ədəbiyyatı ona görə təqdir edirdi ki, o, xalqa daha yaxın idi, onun şüuruna daha tez təsir edirdi. Belə ki, “Molla Nəsrəddin” jurnalında işıq üzü görən tənqidi məqalələr öz forması, yazılış və ifadə tərzinə görə başqalarından seçilirdi. Burada ədəbiyyatın bir sıra ümumi, toxunulan məsələlər yığcam, sözün qısası çox kəskin şəkildə qoyulurdu. Quru təhlil və tənqid üsulu jurnalın səhifələrində yer alan tənqidi məqalələrin ruhuna yad idi. Bu məqalələrdə əsas etibarilə publisistik üslub üstünlük təşkil edirdi. Yeri gələndə satiradan, yumordan, istehzadan məharətlə istifadə olunurdu. Bu xüsusiyyətlər isə jurnalın daha oxunaqlı olması üçün çox əhəmiyyətli idi.

Bütün bunlar XX əsr demokratik tənqidinə forma rəngarəngliyi gətirdi, onun kəskinliyini, kəsərini artırır, nəticə etibarilə tənqidi xalqa daha da yaxınlaşdırırdı. Ümumiyyətlə, XX əsrdə ibtidai şəkildə olsa da tənqidin müxtəlif janrları yaranır, tənqidçi və yazarlar müxtəlif tənqid lövhələrindən istifadə etməyə başlayırlar. Resenziya, tənqidi felyeton, pamflet və b. janrlar buna misal ola bilər.

XX əsrin birinci qərinəsində ən çox yayılmış janrlarından biri sözsüz ki, resenziya idi. Tənqidçilər çap olunan kitabların ideya istiqaməti, bədii keyfiyyəti, nöqsanları ilə oxucuları tanış etmək üçün resenziyadan geniş istifadə edirdilər.

Həmin dövrdə və sonralar resenziya tanrıdan ən çox istifadə edən Seyid Hüseyn Mir Kazımoğlu Sadıqzadə idi. Əsərlərini o, Kazımoğlu, Hüseyn Sadiq və Seyid Hüseyn imzaları ilə çap etdirmişdir.

Kazımoğlu 1887-ci ildə Bakıda doğulmuşdu. İlk təhsilini mollaxanada, daha sonra isə “Rus-tatar” məktəbində almışdır. Cavan yaşlarından böyük bir ailəni dolandırmaq onun öhdəsinə düşdüyündən təhsilini davam elətdirə bilməmiş, Bakıda nəşr olunan qəzetlərin mətbəələrində müxtəlif peşələrdə işləməyə məcbur olmuşdur. Təxminən 20 yaşlarında ədəbi fəaliyyətə başlayan gənc ədəbiyyatçı tənqidi özü üçün əsas peşə seçmişdir.

O, hekayələr, müxtəlif mövzularda məqalələr çap etdirməsinə baxmayaraq əsas diqqətini tənqidə verir, müntəzəm olaraq ədəbi-tənqidi və biblioqrafik məqalələr çap etdirirdi. 1910-cu ildən sonra Kazımoğlu artıq Azərbaycanda peşəkar tənqidçi kimi məşhurlaşır.

***Kazımoğlu “Yeni iqbal” qəzetinin 15 sentyabr tarixli 117 nömrəsində çap etdirdiyi məqaləsində öz vəzifə və məqsədlərini belə izah edir: “...Biz bəzi möhtərəm yazıçı, şair və müsənniflərin əsərlərinə dair el malı olduğu üçün mütaliələr edirik; səhv və nöqsan bildiklərimizi göstəririk.***

***Məqsədimiz bununla başqalarının şəxsiyyətinə toxunmaq deyil, bəlkə mətbuat və ədəbiyyatımıza... bir xidmətdə bulunmaq istəməkdir...”***

***Ədəbi tənqidi ciddi düşündürən məsələlərdən biri də Azərbaycan realizminin xəlqiliyi məsələsi idi. Həyatı doğru, dürüst əks etdirmək tələbi isə dolayı ilə ədəbiyyatın xəlqiliyi məsələsi ilə birləşirdi.***

***Nəhayət, Azərbaycanda realizm məktəbinin C.Məmmədquluzadə və Sabir kimi öz əsərləri ilə xalqın qabaqcıl təbəqəsinin meyllərini ifadə edən, onun mütərəqqi mübarizəsinə təkan və qüvvət verən böyük sənətkarlar yetişdi. Beləliklə, ‘Molla Nəsrəddin” başda olmaqla digər nəşrlər də Azərbaycan həyatını öyrənməyə, onu canlı şəkildə əks etdirməyə və müasirliyə çağırış ədəbi tənqiddə mühüm yer tutan məsələlərdən biri idi...***

(ardı var)